# Hamı üçün dərs

## Məmurlar yeni reallıqlara uyğun işləməlidir

**Vaxtilə dünyada baş verən maliyyə böhranı dövründə olduğu kimi, pandemiyanın bəşəriyyəti ciddi sınaqla üz-üzə qoyduğu zamanda da Azərbaycanda sosial layihələrin icrası dayandırılmayıb. Prezident İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində yeni-yeni istehsal müəssisələrinin, çoxsaylı sosial obyektlərin açılışı olub. Fevralın 1-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Abşeron rayonunda bir sıra sosial obyektlərin, həmçinin Yasamal rayonunda yeni salınan meşə tipli parkın açılışı olub.**



Abşeron Rayon Mərkəzi Xəstəxanasında yaradılan şəraitlə tanış olduqdan sonra Azərbaycan Televiziyasına müsahibə verən dövlət başçısı ölkədə səhiyyə sahəsində görülən işlərdən, atılan addımlardan söhbət açıb. O, söhbət əsnasında bəzi məmurların arzuolunmaz fəaliyyətinə də toxunub, onları sərt tənqid edib. Mərkəzi Bankın sədri Elman Rüstəmovun təmsil etdiyi qurumun Şuşada nümayəndəliyinin açılacağına dair mediada səsləndirdiyi fikirlərə mənfi münasibət bildirən Prezident İlham Əliyev bunu özbaşınalıq adlandırıb.

Prezident qeyd edib ki, belə açıqlama verilməzdən öncə mütləq rəhbərliklə məsləhətləşmə aparılmalıdır. Dövlət başçısı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə heyətinin sədri Saleh Məmmədov, AZAL prezidenti Cahangir Əsgərov, Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Dövlət sərhəd xidmətinin rəisi Elçin Quliyev, Dövlət gömrük komitəsinin sədri Səfər Mehdiyevin də Şuşa ilə bağlı niyyətlərini, ona etdikləri müraciətləri sadalayaraq sözügedən şəxsləri də tənqid edib. Bir daha bəyan edib ki, məmurlar öz yerlərini bilməli, subardinasiyanı qorumalı, öz işləri ilə məşğul olmalıdırlar. O, Şuşanın məmurlar paytaxtı deyil, mədəniyyət paytaxtı elan etdiyini xatırladaraq, bu qədim Azərbaycan şəhərinin tarixiliyinin qorunacağını, bu şərtlər daxilində bərpa olunacağını vurğulayıb. Qeyd edib ki, işğaldan azad olunan bütün torpaqlar planlı şəkildə bərpa ediləcək, orada insanların yaşaması üçün dünyaya nümunə olacaq şərait yaradılacaq.

### "BƏZİ MƏMURLARIN İRƏLİ SÜRDÜYÜ TƏKLİFLƏR..."

**Milli Məclis sədrinin müavini Adil Əliyev** mövzu ilə bağlı bildirib ki, hazırda mühüm məsələlərdən biri işğaldan azad olunmuş ərazilərdə yeni idarəetmə modelinin qurulması, habelə həmin torpaqlarda aparılan bütün işlərin sistemləşdirilməsi və növbəti mərhələdə oraya böyük qayıdışın təmin olunmasıdır. Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərimizdə yeni idarəetmə sistemi qurulur, dövlət başçısının xüsusi nümayəndələri ərazilərə təhkim olunur və orada baş verən bütün hadisələr onların nəzarəti altındadır: "İlkin olaraq Şuşa şəhərinə xüsusi nümayəndə təyin edilib. Bundan əvvəl Şuşa dövlətimizin başçısı tərəfindən ölkəmizin mədəniyyət paytaxtı elan olunub. Bununla yanaşı, Şuşa şəhərinin türk və İslam dünyalarının paytaxtı elan edilməsi istiqamətində ciddi iş aparılır. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi ilə yanaşı, aparılan abadlıq-quruculuq işləri, habelə işğaldan azad edilmiş ərazilərimizin sakinlərinin oraya geri qaytarılması prioritet məsələlərdəndir. Təəssüflə qeyd etməliyik ki, belə bir məqamda bəzi məmurların irəli sürdüyü təkliflər olduqca absurd səslənir. Bəzən məmurların təkliflərinin əsasında dövlət mənafeyindən daha çox, şəxsi mənafe dayanır, bu cür münasibət isə qəbuledilməzdir. Eyni zamanda, bəzi məmurların onlara edilən müraciətlərə yanaşma tərzləri olduqca qəbuledilməzdir. Belə ki, vəzifəli şəxslərə edilən müraciətlər zamanı onlar hər hansı bir problemin həlli üçün yalnız onlara fərdi qaydada müraciət etdikdən sonra məsələnin həllinin mümkün olacağını bildirirlər. Əfsus ki, bəzən hər hansı bir məsələnin həlli üçün müvafiq icra hakimiyyəti orqanının rəhbərliyi ilə əlaqə saxlamaq müşkül məsələyə çevrilir. Belə olduqda isə sadə vətəndaşların həmin məmurların qəbuluna düşməsi, problemlərinin həll edilməsi demək olar mümkün deyil".

Millət vəkili söyləyib ki, hər bir məmur ona göstərilən etimadı doğrultmalıdır. Vitse-spikerin qənaətincə, göstərilən etimadı doğrultmayanların, qanunsuz əməllər törədənlərin ilkin mərhələdə vəzifələrini, bəzi hallarda azadlıqlarını itirmələrinin dəfələrlə şahidi olmuşuq: "Bu gün vəzifənin və ya səlahiyyətin həcmindən asılı olmayaraq, əsas amalımız Azərbaycan Prezidentinin formalaşdırdığı siyasi iradəyə uyğun olaraq dövlətə, dövlətçiliyə, vətəndaşlarımıza xidmətdir. Əgər əsas hədəf budursa, hansı səbəbdən bəzi məmurlar əlçatan olmaqdan imtina edir, görüşlərdən, telefon zənglərindən qaçır və sonda vətəndaşların problemləri daha da dərinləşir. Bəzi hallarda vətəndaşların müraciətləri təmin olunmadığı üçün daha yuxarı qurumlara müraciətlər edilir, vətəndaşın məmurun qəbuluna düşməsi isə indiki məqamda mümkün deyil. Başadüşüləndir ki, indi pandemiyadır və hazırkı məqamda qəbul mümkün deyil, amma ən azından müraciətlərə baxılaraq onların qanunvericiliyin tələblərinə uyğun həlli mümkündür. Lakin bəzi məmurlar sanki özlərini bütün cəmiyyətdən təcrid ediblər. Belə hallar heç xoşagələn deyil və cəmiyyətdə olan xoş əhval-ruhiyyənin, mehribançılığın, inamın əleyhinə yönələn yolverilməz hərəkətlərdir. Ümid edirik ki, Prezident İlham Əliyevin Şuşanın məmurlar paytaxtı yox, mədəniyyət paytaxtı elan edildiyi barədə xəbərdarlığı hamı üçün dərs olacaq. Çünki bu gün hər kəs torpaqlarımızın işğaldan azad edilməsinin cəmiyyətdə yaratdığı xoş ovqatın daimi olması istiqamətində əlindən gələni etməlidir. Axı, qarşıda bizi daha böyük işlər gözləyir. Bunların içərisində ən mühümü isə işğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsi və oraya böyük qayıdışın təmin edilməsidir".

### "İCTİMAİ NƏZARƏT MÜTLƏQ OLMALIDIR"

**Deputat Sahib Alıyev** qəzetimizə açıqlamasında deyib ki, Prezidentin yüksək vəzifəli məmurları tənqid etməsindən, işğaldan azad olunan torpaqların bərpası ilə bağlı səsləndirdiyi fikirlərdən hər kəs özü üçün nəticə çıxarmalıdır: "İki gündür ki, sosial şəbəkədə minlərlə, bəlkə də, on minlərlə adam Prezident İlham Əliyevin fevralın birində Azərbaycan Televiziyasına verdiyi intervüdə səsləndirdiyi tənqidi fikirləri paylaşır. Bununla bağlı şərhlər də az deyil və onların əksəriyyətində diqqət tənqid hədəfi olan hərəkətin özündən daha çox, tənqid edilənlərin kimliklərinə yönəlib. Əlbəttə, bu, təbiidir, çünki söhbət yüksək vəzifəli məmurlardan gedir. Amma və lakin, mən belə hesab edirəm ki, cənab Prezidentin həmən məmurları tənqidi, onlardan da çox, bizim hamımızın nəticə çıxarmamız üçün idi. Əks təqdirdə o fikirlər kameralar qarşısında söylənilməzdi. Məmurların özlərinə gəldikdə isə elə sözügedən intervüdən də görünür ki, istəklərini dilə gətirərkən onlara anındaca nə lazımdır və necə lazımdır deyilib. Türkiyənin Milliyyətçi Hərakat Partiyası liderinin cənab Prezidentdən Şuşada azərbaycanlı balaları üçün orta məktəb tikdirməyə razılıq verməsini diləməsi fonunda bizim məmur və yaxud da imkanlı kimsə orada ilk növbədə öz maraqlarına uyğun gələn layihəni reallaşdırmaq istəyində bulunursa, onun doğurduğu reaksiyanı təsəvvür etmək elə də çətin deyil".

Millət vəkili dövlət başçısının səsləndirdiyi tənqiddən çıxardığı nəticələri də bölüşüb: "Birinci nəticə budur ki, "biz torpaqlarımızı mütləq azad edəcəyik" söyləyən və yaxşı tanıdığımız böyük güclərin təzyiq, təhdidlərinə, diş qıcamalarına, sifət turşutmalarına rəğmən onu edən İlham Əliyev şəffaf, düzgün, halal, rasional, ağıllı, vətəndaş məmnunluğuna yönəlik idarəçiliklə bağlı 2018-ci ildə andiçmə törənində nə demişdisə, hamısı yerinə yetiriləcək və kimsə bunun qarşısını almaq qüdrətində deyil. İkinci çıxardığım nəticə də, əslində birincidən doğur və o da budur ki, işğaldan qurtarılan torpaqlarımızda təkcə "smart", yəni ağıllı şəhər və kəndlərin salınması planlaşdırılmır, həm də bütün bunlar, belə demək mümkündürsə, "smart"casına, talançılığa, ilkin kapitalın yığılması dönəminə xas hasarlama-qamarlama hərəkətlərinə yol verilmədən reallaşdırılacaq. Üçüncü, bəlkə, elə də fərqində deyilik, amma Ali Baş Komandanımız təkcə torpaqlarımızı işğaldan azad etmədi, cəmiyyətimizi də başqasında gördükdə bizə xoş gəlməyən, haqlı nifrət doğuran, özümüzdə və doğmalarımızda isə bunu normal qarşıladığımız, hətta alqışladığımız bəzi mənfiliklər var ki, onlardan qurtarmağa çalışır. Çalışır və mənim yeni cəmiyyət quruculuğu kimi dəyərləndirdiyim bu prosesdə cəmiyyətin özünün də obrazlı desək, daş qaldırmasına ehtiyac duyur".

Deputatın fikrincə, məmurlar yeni reallıqlara uyğun işləməlidirlər: "Biz "idarəçilikdə, düzgünlük, şəffaflıq, halallıq olsun" deyirikmi? Deyirik. Məmur özbaşınalığına son qoyulmasını, hər kəsin bacardığı işin qulpundan yapışmasını, çörək bişirməyin çörəkçiyə tapşırılmasını istəyirikmi? İstəyirik. Amma eyni zamanda da bir lətifəmizdə olduğu kimi Allahdan avtomobil udmağı arzulayan, fəqət bunun üçün lotereya almaq lazım gəldiyini unudan adam kimi davranırıqmı? Davranırıq. Məhz ona görə də cənab İlham Əliyev dəfələrlə və israrla cəmiyyəti, rastlaşdığı qanunsuzluqlara göz yummamağa, onun qarşısının alınması üçün hərəkətə keçməyə səsləyir ki, fevralın birində də oxşar çağırış oldu: "Azərbaycan vətəndaşlarına da deyirəm, bərpa işləri ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır. Olmasa, bilin, yenə də eybəcər binalar tikiləcək, torpaqlar zəbt ediləcək, hərə özü üçün bir obyekt tikəcək". Amma bunu edənlər də cəzasız qalmayacaq. Prezidentimizin müsahibəsindən çıxardığım sonuncu nəticə də budur. Və odur ki, köhnə, yaxud yeni kadr, fərqi yoxdur, hər kəs yeni reallıqlara uyğun işləməlidir. Bu unudulanda isə nə baş verdiyini görürük və görəcəyik".

### YENİ İDARƏETMƏ İNSTİTUTUNUN YARADILMASI

**Hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** də hesab edir ki, bərpa ilə bağlı görüləcək işlərdə ictimai nəzarətin olması mütləqdir, zəruratdir: "Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə razılaşdırılmadan nümayəndəliklərin açılacağı barədə verilən bəyanatların özbaşınalıq olduğunu vurğuladı və bildirdi ki, bu, yolverilməzdir. Bütün təkliflər, bütün təşəbbüslər Əlaqələndirmə Qərargahına göndərilməlidir. O torpaqları, əraziləri kim necə istəyir elə də bərpa edə bilməzdir. "Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir. Bu, yolverilməzdir və qəbuledilməzdir. Ona görə, burada subardinasiya olmalıdır. Ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özünə hansısa bir ofis, yeni ofis yaratmaq üçün belə açıqlamaların verilməsi tamamilə qəbuledilməzdir və buna son qoyulmalıdır". Dövlətimizin başçısı azad edilmiş ərazilərdə, xüsusilə Şuşa şəhərində filial, nümayəndəlik açmaq istəyən bəzi məmurlara da öz yerlərini göstərdi. "Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar" deyən Azərbaycan Prezidenti Şuşanı məmurlar paytaxtı deyil, mədəniyyət paytaxtı elan etdiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı vurğuladı ki, Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar".

Ç.Qənizadə işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Prezidenti tərəfindən yaradılmış xüsusi idarəetmə strukturunun önəmini də qeyd edib. O, bir neçə gün əvvəl Azərbaycan Prezidentinin işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə həmin ərazilərdə xüsusi nümayəndəliklərin təsis edilməsinə dair Fərman imzaladığını xatırladıb. Hüquq müdafiəçisi vurğulayıb ki, bu, bütün neqativ halların qarşısının alınması, səmərəli və operativ idarəetmənin həyata keçirilməsi məsələsində üstünlüklərə malik olan nümunəvi modeldir: "İlk xüsusi nümayəndə Şuşa rayonunda təyin edildi. Onu da vurğulayım ki, Şuşada Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi həm də ölkəmizdə yeni idarəetmə institutunun yaradılması deməkdir. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, Prezident İlham Əliyevin nəzarəti ilə həyata keçirilən bərpa strategiyası işğaldan azad edilmiş ərazilərimizin regionun ən inkişaf etmiş zonasına çevriləcəyinə tam əminlik yaradır".

**Rufik İSMAYILOV**